# Əməkdaşlığımızın inkişafı yolunda birgə səylər göstərəcəyik

## Mavritaniya İslam Respublikasının Prezidenti zati-aliləri cənab Məhəmməd uld Şeyx əl-Qazuaniyə

Hörmətli cənab Prezident!

Mavritaniya İslam Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, xalqlarımızın rifahı naminə mövcud imkanlardan yararlanaraq dostluq münasibətlərimizin, həm ikitərəfli, həm də çoxtərəfli əsasda əməkdaşlığımızın inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost xalqınıza daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2023-cü il*

Azərbaycan.- 2023.- 29 noyabr, № 260.- S.11.